## AZƏRBAYCANDAN GÖNDƏRİLMƏSİ ŞƏRTİ İCAZƏLİ MALLAR

**Dəyərli istifadəçi,**

**Aşağıda sizə göndərişinə müvafiq təşkilatlar tərəfindən müəyyən şərtlərlə icazə verilən mal və əşyalar haqqında məlumatlar təqdim olunur:**

- Baytarlıq təbabətində tətbiq olunan dərmanlar, baytarlıq ləvazimatları, bitkilər, heyvan və bitki mənşəli xammal – Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq İdarəsi Fitosanitar nəzarəti xidmətinin rəsmi icazəsi olduqda
- Bədii, tarixi, elmi əhəmiyyət kəsb edən və başqa qiymətli mədəni əşyalar (o cümlədən 1965-ci ilə qədər Azərbaycanda və xaricdə buraxılmış kütləvi istehsal məhsulu olmayan əşyalar, əllə toxunmuş xalçalar, xalça məmulatları, büllur, çini və saxsı qabları, musiqi alətləri, təsviri sənəd əsərləri və s.) – Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəsmi icazəsi olduqda
- Zooloji kolleksiyalar, onların hissələri və ya ayrı-ayrı obyektləri, o cümlədən heyvanlar aləmi obyektləri - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi icazəsi olduqda.